# BEYNƏLXALQ BANK ZƏMANƏTLƏRİ

«BANK RESPUBLİKA» öz müştərilərinə birinci sinif Avropa, Amerika və Asiya banklarının adından beynəlxalq bank zəmanətlərinin verilməsi xidmətini təklif edir. Bank Respublika-nın beynəlxalq bank zəmanətləri ixracatçıdan kredit xəttinin əldə edilməsi və ya genişləndirilməsinin (vaxt baxımından uzadılmasının) və ya tədarük edilən mallar üzrə əlavə qiymət güzəştinin əldə edilməsinin ucuz və rahat yoludur.

## BANK ZƏMANƏTİ NƏDİR?

Bank zəmanəti alıcının (idxalçı, sifarişçi) malların dəyərinin ödənilməsi üzrə öz öhdəliklərini yerinə yetirəcəyinə və ya təchizatçının (ixracatçı, bəhrələnən şəxs) işləri yerinə yetirəcəyinə və ya alıcıya (idxalçı, sifarişçi) xidmətlər göstərəcəyinə satıcını (ixracatçı, bəhrələnən şəxs) inandırmaq üçün nəzərdə tutulan hərtərəfli alətdir.

Zəmanət bank (emitent bank) tərəfindən müəyyən müddətə buraxılır və sifarişçinin qərarı ilə həmin müddət uzadıla bilər.

Müxtəlif növdə zəmanətlər mövcuddur: ödəniş zəmanəti, öhdəliklərin icrası zəmanəti, avans ödənişinin qaytarılması zəmanəti, tenderdə iştirak zəmanəti və s.

Bəzən bəhrələnən şəxs emitent banka etibar etmir və xahiş edir ki, zəmanət Bank Respublika tərəfindən deyil, hər hansı birinci sinif xarici bank tərəfindən verilsin. Belə olan halda Bank Respublika birinci sinif xarici bankın ünvanına əks-zəmanət buraxır, xarici bank isə öz adından bəhrələnən şəxsin ünvanına bank zəmanəti verir.

## ZƏMANƏTLƏR NƏYƏ GÖRƏ BURAXILIR?

Zəmanətlər (mallar, işlər və ya xidmətlər idxal edildiyi təqdirdə) daha əlverişli təchizat şərtlərinin təmin edilməsi üçün buraxılır. Öz sərəncamında bank zəmanətinə malik olaraq bəhrələnən şəxs (satıcı) sifarişçiyə (alıcı) mal krediti (möhlət) təqdim edə, möhlət məbləği və ya müddətini artıra, tədarük edilən mallar üzrə əlavə qiymət güzəşti təqdim edə və s. bilər.

Bəhrələnən şəxs (satıcı) bilir ki, tədarük edilmiş malların (yerinə yetirilmiş işlər, göstərilmiş xidmətlər) dəyərinin sifarişçi (alıcı) tərəfindən ödənilməməyi riski artıq bank zəmanəti ilə təmin edilmişdir. Alıcı üçün zəmanət öz ucuz qiymətinə və satıcıdan əlavə kommersiya mənfəətlərinin əldə edilməsi imkanına görə sərfəlidir. Zəmanət çox tez uyğunlaşdırıla bilən və rahat maliyyələşdirmə alətidir: əgər zəmanətin istifadəsi haqqında satıcı ilə razılaşma əldə edilmişdirsə və alıcıya ödəniş

## QANUNVERİCİLİK MƏHDUDİYYƏTLƏRİ

Bank zəmanəti buraxıldığı ölkənin qanunları ilə tənzimlənir. Məsələn Almaniyada buraxılan zəmanət Almaniya qanunları ilə tənzimlənir. Buna görə də xarici təchizatçılar xahiş edirlər ki, onların özlərini yerləşdikləri ölkənin qanunvericiliyi ilə tənzimlənən zəmanət təqdim edilsin. Bu, alıcı üçün heç də həmişə rahat olmur, çünki zəmanət buraxmaq üçün alıcının ölkəsində yerləşən üçüncü bankı bu əməliyyatda iştiraka cəlb etmək lazımdır. Bu vəziyyətdən çıxış yolu kimi Beynəlxalq ticarət palatasının Vahid sənədli akkreditiv qaydaları və adətləri ilə tənzimlənən, geri çağırılmayan ehtiyat akkreditivinin (bank zəmanətinin analoqu) buraxılmasından istifadə etmək olar. Lakin geri çağırılmayan ehtiyat akkreditivini buraxmaq üçün təchizatçının razılığı və ya ödəniş öhdəliklərinin təminatı vasitəsi kimi ehtiyat akkreditivinin buraxılması imkanının bilavasitə müqavilənin mətnində qeyd edilməsi lazımdır.

## BANK ƏMƏKDAŞLARININ MƏSLƏHƏT XİDMƏTLƏRİ

Bank Respublika-nın əməkdaşları bank zəmanətləri vasitəsilə hesablaşmanın xüsusiyyətlərini nəzərə almaqla zəmanətlərin buraxılması, xarici ticarət müqavilələrinin (saziş) maddələrinin ifadə formasının tərtib edilməsi məsələləri haqqında pulsuz məsləhət xidmətləri göstərir. Biz həm də sizin təchizatçının (satıcı) maliyyə xidməti ilə əlaqə saxlaya və hesablama əsnasında bank zəmanətindən istifadənin zəruriliyinə sizin öz təchizatçınızı (satıcı) inandırmağınıza kömək edə bilərik. Bank Respublika sabit və sürətlə böyüyən maliyyə təsisatıdır və Moody's Investors Service agentliyinin beynəlxalq kredit reytinqinə və beynəlxalq standartlara riayət etmək öhdəliyinə malikdir. Əgər sizin xarici təchizatçınız bilavasitə Bank Respublika-nın zəmanətini qəbul edirsə, onda bu cür zəmanətin açılması xərcləri xeyli azalır.

## BU TEZ, RAHAT VƏ UCUZDUR

Müxbir bankların geniş şəbəkəsi (Argentinadan

möhləti verilmişdirsə, onda alıcı sərbəst surətdə tədarükləri və satıcı ilə hesablaşmanı planlaşdıra bilər, bir şərtlə ki, alıcının satıcı qarşısındakı borcunun məbləği bank zəmanətinin məbləğindən artıq olmasın.

## ZƏMANƏT ÜZRƏ ÖDƏNİŞİ NECƏ ƏLDƏ ETMƏLİ?

Zəmanət üzrə ödənişi əldə etmək üçün satıcı zəmanəti verən banka sərbəst formada yazılı ərizə verməklə bildirməlidir ki, alıcı öz müqavilə öhdəliklərini yerinə yetirməmişdir.

Bəzən ərizəyə ödənilməmiş hesabların surətləri və /yaxud malların alıcının ünvanına göndərildiyini təsdiq edən nəqliyyat sənədləri əlavə edilir. Satıcının ərizəsinin dürüstlüyü ona xidmət göstərən bank tərəfindən təsdiq edilməlidir.

Avstraliyaya, Norveçdən CAR-na qədər bütün dünya üzrə 520-dən çox müxbir bank) sayəsində Bank Respublika müştərilərimiz üçün maksimal dərəcədə sərfəli şərtlərlə zəmanətlər buraxa bilir. Birinci sinif bank adından təminatsız bank zəmanətinin buraxılması haqqı illik 8-9%-dən artıq olmur. Bu komisyon haqqı zəmanət üzrə BÜTÜN xərcləri özündə ehtiva edir. Bank zəmanətinin dəyəri haqqında yekun qərar Bank Respublika-nın Kredit komissiyası tərəfindən, kredit vermə həddi təyin edildikdən sonra, standart təminat növlərinin rəsmiləşdirilməsi şərti ilə qəbul edilir.

«BANK RESPUBLİKA» ASC
Beynəlxalq Əlaqələr Departamenti
Azərbaycan AZ1000, Bakı şəhəri, Xaqani küçəsi, ev 21
Telefonlar: +994 12 598 08 00 (Elnarə Sərxanova),
Faks: +994 12 598 08 80, elektron poçtunun ünvanı:
ElnaraS@BankRespublika.az